

# Ağstafa: məhsullar artıq xarici bazarlara da ixrac olunur

**Ağstafa paytaxt Bakıdan 500 kilometr aralıda, respublikanın qərb bölgəsində yerləşən, inzibati rayon kimi fəaliyyətə başlaması yaxın keçmişə təsadüf edən yüksək inkişaf tempinə malik olan bir rayondur. Bu günlərdə rayonda qeyri-neft sektorunun, eləcə də digər sahələrin mövcud vəziyyəti ilə tanış olmaq üçün bölgəyə yollandıq. Rayonda irimiqyaslı infrastruktur layihələrin, aqrar sahənin və sənayenin inkişafı geniş vüsət almışdır.**

**Rayonun simasının gündən-günə dəyişməsi onu deməyə əsas verir ki, Ağstafa özünün tərəqqi dövrünü yaşayır. Dövlətimizin başçısı İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə bağlı imzaladığı sərəncamlar rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Respublika Prezidentinin çıxışlarının birində dediyi "Əsas məqsədimiz yerli istehsalı gücləndirmək, idxaldan asılılığı azaltmaqdır" kəlamı prioritet götürülür. Sahibkarlığa yaradılan münbit və şəffaf şərait investorların rayona axınını təmin etmişdir. İnvestorları cəlb edən əsas göstəricilərdən olan yol-nəqliyyatın şaxələndirilməsi, lazımi infrastrukturun formalaşdırılması Ağstafada təmin edilmişdir.**

Ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da nəqliyyat-yol kompleksində, eləcə də yol təsərrüfatında sistemli və kompleks tədbirlər həyata keçirilir. Son illər Ağstafa rayonunda yol infrastrukturunun əsaslı, yenidən qurulması uğurla icra olunur. Əsaslı şəkildə yenidən qurulan Vurğun, Həsənsu, Qırılı, Eynallı və Köçəsgər kəndlərini Ağstafa şəhəri ilə əlaqələndirən, uzunluğu 15,5 km olan Ağstafa-Köçəsgər avtomobil yolunda əsaslı yenidənqurma işləri başa çatdırılmışdır. Vurğun, Göycəli, Tatlı, Yaradullu və Köhnəqışlaq kəndlərini rayon mərkəzi ilə əlaqələndirən uzunluğu 24 km olan Vurğun-Köhnəqışlaq avtomobil yolunun yenidən qurulması işləri davam etdirilir. 9,5 km uzunluğunda Köçvəlili-Qarayazı avtomobil yolunun əsaslı surətdə yenidən qurulması başa çatdırılmışdır. 9.5 km uzunluğunda olan Ağstafa-Aşağı Kəsəmən-Zəlimxan-Poylu avtomobil yolunun tikintisi həyata keçirilir. Ağstafa rayonu ərazisində əhalinin rahat və təhlükəsiz gediş-gəlişini təmin etmək və sahibkarlıq subyektlərinin səmərəli əlaqələndirilməsi məqsədilə 4 körpünün tikintisi, Ağstafa-Poylu-Gürcüstan dövlət sərhədi avtomobil yolunda 3, Ağstafa-Poylu-Düzqışlaq-Qazax yerli avtomobil yolunun üzərində isə 1 körpünün inşası başa çatdırılmışdır. Layihə çərçivəsində dəmir yolu, Ağstafaçay və Acıdərəçay üzərindəki körpülər sökülüb, Kür çayı üzərindəki körpü isə tarixi əhəmiyyəti nəzərə alınaraq saxlanılmışdır.

Son illərdə rabitə sisteminin yaxşılaşdırılması sahəsində bir sıra addımlar atılmış, internet istifadəçilərinin sayı artırılmışdır. Təkcə bu il rayonun Dağ Kəsəmən, Tatlı və Həsənsu kəndlərində internet istifadəçilərinin sayının artırılması üçün yeni avadanlıqlar qoyulmuş, internet istifadəçilərinin sayı 1080 nəfərə çatdırılmış, Eynallı kəndində yeni məhəlləyə xətt çəkilərək 16 abonentə telefon və internet verilmiş, Dağ Kəsəmən kəndində EATS-in montaj tutumu artırılmış və abonentlərin istifadəsinə verilmiş, 125 abonent internetlə təmin olunmuşdur. Əhalinin elektrik enerjisi ilə təminatında da əhəmiyyətli işlər görülməkdədir. Bu il sıradan çıxmış 48 ədəd müxtəlif gücə malik transformator bərpa edilmiş, 10, 6 və 04 kv elektrik xətlərində cari təmir işləri aparılmış, çürük dayaqlar yenisi ilə əvəz edilmişdir. Vurğun qəsəbə, Həsənsu, Dağ Kəsəmən və Zəlimxan kəndlərində 0.4 kv hava xəttində 4.1 km yeni SİP xətti çəkilmiş, 77 ədəd dayaq yenisi ilə əvəz olunmuşdur. Rayonda sahibkarlığın, qeyri-neft sektorunun inkişafında rayonun tranzit əhəmiyyətli yerləşməsi, şaxələndirilmiş yol-nəqliyyat və infrastrukturla yanaşı, sahibkarlıq subyektlərinin şəffaf qeydiyyatının və onların dövlət tərəfindən güzəştli kreditlərlə təmin olnmasının da mühüm rolu vardır. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına rayon üzrə sahibkarlıq subyektlərinə təkcə bu il 46 layihə üzrə 624.6 min manat güzəştli kreditlər verilmişdir.

Sevindirici haldır ki, artıq rayonda istehsal olunan yüksək keyfiyyətli əmtəələr nəinki daxili bazara, həm də yüksək rəqabətli beynəlxalq bazarlara çıxış əldə etmişdir. Rayonda İtalyan texnologiyası ilə "Akkord" şirkətlər qrupunun tekstil müəssisəsində istehsal olunan geyimlər bu qəbildən olan məhsullardandır. Fabrikdə ixracyönlü məhsul istehsalı üçün əlavə olaraq 200 min (ABŞ) dolları həcmində investisiya qoyulmuş və bu istiqamətdə işlər davam etdirilir. Hazırda 120 nəfərin çalışdığı fabrikdə ixrac üçün nəzərdə tutulan məhsulların istehsalı həyata keçirilir. Artıq fabrikin istehsal etdiyi məhsulların Avropa bazarına çıxarılması üçün müqavilələr bağlanmış və məhsullar ixrac olunur. Gələcəkdə məhsul istehsalını çoxaltmaq, işçilərin sayını iki dəfə artırmaq və ixrac məhsullarının çeşidini və həcmini artırmaq üçün tədbirlər görülür. Həmçinin, açılışı keçən ilin oktyabr ayında ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən gerçəkləşdirilən "Karvan-L Eko" sənaye parkında istehsal olunan müxtəlif profilli məhsullar da müasir standartlara cavab verir. Sənaye parkında 7 müəssisə, eləcə də kənd təsərrüfatı məhsulları yetişdirilən istixana kompleksi fəaliyyət göstərir. Parkın mozaik daş emalı sahəsində Ağstafa rayon Tatlı kəndində yerləşən mədəndən təbii daşlar (göy, qırmızı) xüsusi kəsici qurğularla kəsilərək blok halına salınıb müəssisəyə gətirilir. Blok halına salınmış təbii daşlar daş emalı sahəsində xüsusi texnika və vasitələrlə kəsilərək mozaik daşlar hazırlanır. Qalınlığı istənilən ölçülərdə daşlar istehsal olunur. Dəmir dam örtükləri istehsalı müəssisəsində İngiltərənin "Corus-Tata Steel" şirkətinin məhsulu olan metaldan istifadə olunur. Tərkibində paslanmaya qarşı sink olan metalın üzərinə 5-7 qatdan ibarət olan poliestr örtük çəkilmişdir. Şirkət tərəfindən istehsal olunan dam örtüklərinə 25 il zəmanət verilir. Müxtəlif çeşidlərdə dəmir dam örtükləri (Kaskad Holland Ranilla Karol Profnastil) və aksesuarları xüsusi qurğularla kəsilərək istehsal olunur. Plastik qapı-pəncərə və şüşə-metal konstruksiya istehsalı sahəsində plastik profillərdən müxtəlif ölçüdə və müxtəlif rəngdə qapı və pəncərələr eyni zamanda paket şüşələr istehsal olunur. Qranul istehsalı müəssisəsində isə polietilen tullantı xammal xüsusi qurğulardan keçərək yuyulur doğranır və yenidən emala verilir. Hazırlanan qranul xammal kimi müxtəlif plastik istehsal sahələrinə göndərilir.

Hazırda sənaye parkının layihəsinə uyğun istehsal gücü sutkada 500 kvadratmetr olan keramika dam örtüklərinin istehsalı zavodunun tikintisi işləri davam etdirilir. Gələcəkdə balıqçılığın inkişaf etdirilməsi üçün Həsənsu çayı üzərində işlər aparılır. "Karvan-L" EKO Sənaye Parkınının tikintisi üçün 7 milyon manat vəsait qoyulmuşdur. Ağstafada müasir mebel avadanlıqları istehsalı üzrə fəaliyyət göstərən Saloğlu firmasının nəzdində "Modern Mebel Fabriki" və "Venzena Mebel Fabriki" layihələrinin icrası həyata keçirilir. "Venzena Mebel Fabriki"nin layihə-smeta sənədləri hazırlanmış, yaxın günlərdə mebel şəhərciyinin tikintisinə başlanılması nəzərdə tutulur. Mebel şəhərciyinin tikintisi üçün 128 milyon 741 min manat investisiya qoyulması planlaşdırılır. Ağstafada qədim xalçaçılıq ənənələrinin olması nəzərə alınaraq "Azərxalça" ASC-nin Ağstafa filialı təsis edilmişdir. Tikinti üçün rayon icra hakimiyyəti tərəfindən şəhərin Hüseyn Arif küçəsində 0.50 ha torpaq sahəsi ayrılmışdır. Layihə üzrə birmərtəbəli və sahəsi 1246,0 kvadratmetr olacaq binanın inşaat işləri hazırda başa çatmaq üzrədir. Burada 465,6 kvadratmetr sahə toxuculuq zalı üçün nəzərdə tutulub. Müəssisə fəaliyyətə başladıqdan sonra 120 nəfər daimi işlə təmin olunacaqdır. Ağstafa rayonunda yeni iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi rayonun ixrac potensialını artırır və çoxsaylı yeni iş yerləri yaradır.

Sirr deyil ki, ölkədə ərzaq təhlükəsizliyinin və əhalinin məşğulluğunun təmin edilməsində aqrar sahə strateji sahədir. Rayonda bu sahənin inkişafı diqqət mərkəzindədir. Aparılan aqrar islahatlar kənd təsərrüfatında yeni münasibətlərin formalaşmasına və nəticədə məhsul istehsalının artmasına səbəb olmuşdur. Bu il Ağstafa rayonu üzrə 30883 ton taxıl istehsal olunmuşdur və hər hektardan 30.0 sentner məhsul götürülmüşdür. İstehsal olunan taxılın 26373 tonu buğda, 4510 tonunu arpa məhsulu təşkil edir. Rayon üzrə müxtəlif növ kənd təsərrüfatı məhsullarının istehsalı davam etdirilir, bu günə kimi 2610 ton bostan məhsulu, 15450 ton kartof, 479 ton soğan, 6056 ton tərəvəz, 2619 ton günəbaxan, 3345 ton qarğıdalı istehsal olunmuşdur. Kənd təsərrüfatı məhsullarının əkilib becərilməsində 19776 nəfər məşğul olmuşdur. Cari ildə rayon üzrə kənd təsərrüfatı məhsullarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 371 min manat artmışdır. Bu, dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiya, texnika təminatı nəticəsində əldə olunmuşdur. Rayonda payızlıq və yazlıq bitkilərin əkilib-səpilməsində "Ağstafa Aqroservis" MMC-nin 67 ədəd və "Aqrolizinq" ASC-nin Ağstafa Aqroservis xidmətinin 72 ədəd müasir kənd təsərrüfatı texnikasından istifadə olunmuşdur. Bu da rayonda aqrotexniki xidmətlərin müasir standartlara uyğun qurulmasına, məhsuldarlığın artırılması və torpaq ehtiyatlarından daha səmərəli istifadəyə imkan yaradır.

Azərbaycan Respublikasında şəkər çuğunduru istehsalının stimullaşdırılması haqqında Prezidentin Fərmanına uyğun rayonda 500 hektar şəkər çuğunduru əkilmişdir. Azərbaycan Respublikası Prezidentinin 05.06.2017-ci il tarixli sərəncamı ilə rayonda 7 ədəd subartezian quyusunun qazma işləri aparılır. Rayonda əkin sahələrinin suvarma suyuna olan tələbatının yaxşılaşdırılması üçün Pirili, Xılxına, Köçəsgər, Eynallı, Aşağı Göycəli, Aşağı Kəsəmən və Poylu kəndlərində quyuların qazılması həyata keçirilir. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində Almaniyanın qabaqcıl şirkətlərinin iştirak etdiyi "Ağstafa Aqroservis" MMC-nin 2-ci mərhələsini təşkil edən Ağstafa taxıl və un məmulatları kombinatının tikintisi işləri sürətlə davam etdirilir. Ağstafa Taxıl və Un Məmulatları İstehsalı Kombinatı 3 zavoddan ibarət olacaq. Bunlar "Toxumluq taxıl emalı", "Taxıl emalı və un istehsalı" və "Çörək və yarımfabrikatlar istehsalı" zavodlarıdır. Layihə çərçivəsində saatda 1 ton istehsal gücünə malik çörək zavodu, 30 min tonluq taxıl, 2 min tonluq un rezervuarları, mədəniyyət mərkəzi, 300 yerlik konfrans zalı, hazır məhsul anbarı, ikimərtəbəli fast-fud iaşə obyekti, 140 yerlik yeraltı avtomobil dayanacağı, yem anbarının tikintisi yekunlaşmaq üzrədir. "Ağstafa Aqroservis" MMC-nin 2-ci mərhələsinin tikintisi üçün 26 milyon manat investisiya qoyulmuş və tikintinin tam başa çatdırılması üçün əlavə olaraq 13 milyon manat investisiya yatırılması nəzərdə tutulur.

Ağstafada abadlıq-quruculuq və təmir-tikinti sahəsində sürətli inkişaf təmin edilir. Son dövrlərdə rayonda görülən irimiqyaslı işlər infrastrukturun şaxələndirilməsi ilə yanaşı, həm də rayonun görkəmini daha da gözəlləşdirir. Ağstafa şəhərinin abadlaşdırılması, küçə və meydanların yenidən qurulması, çoxmənzilli yaşayış binalarının təmiri işləri ön plana çəkilmişdir. C.Cabbarlı küçəsində abadlıq-yenidənqurma işləri aparılmışdır. Bəzi küçələrdə abadlıq işləri üçün hazırlıq işləri aparılır, zəbt olunmuş səkilər açılmış və ağaclar budanmışdır. Şəhərin əksər yaşayış binalarının dam örtüyü dəyişdirilmiş, fasad hissəsi, pilləkən boşluqları və həyətlərində təmir bərpa işləri görülmüşdür. Park və xiyabanlara bəzəkli işıq dirəkləri quraşdırılmışdır, gecə işıqlandırılması şəhərə bir başqa gözəllik verir.

Rayonda təhsilin forma və məzmunca yeniləşməsi və müasirləşməsi daim diqqət mərkəzindədir. Təhsilin infrastrukturunun daha da yaxşılaşdırılması istiqamətində ciddi işlər aparılır. 2017-ci ildə rayonun sosial-iqtisadi və ictimai-siyasi həyatında baş verən ən mühüm hadisələrdən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ağstafa şəhərində 1320 şagird yerlik 3 saylı tam orta ümumtəhsil məktəbi binasının əsaslı təmiri işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Ağstafa Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılmasıdır. Köhnəqışlaq kənd tam orta məktəbi üçün 108 yerlik yeni məktəb binasının və Kolayır kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəb binasının tikintisi işləri də başa çatdırılmışdır.





Respublika Prezidentinin ölkə vətəndaşlarının tibbi müayinədən keçirilməsi barədə tapşırığının icrası ilə əlaqədar Ağstafa rayon əhalisinin tibbi müayinədən keçirilməsi bu il də həyata keçirilmişdir. Rayonun Saloğlu qəsəbəsində yeni tibb məntəqəsi tikilib istifadəyə verilmiş və inventar avadanlıqlarla təchiz olunmuşdur.






Rayonda şəhid ailələri və bu qəbildən olan imtiyazlı insanlar daim rayon rəhbərliyinin diqqət mərkəzindədir. Bu günlərdə İDEA İctimai Birliyinin təşəbbüsü ilə rayonun Poylu kəndi ərazisində 2 hektar sahədə 1000 ədəd xurma ağacı əkilmiş, yaradılan təzə bağ şəhid ailələri arasında bölünərək təmənnasız onların istifadəsinə verilmişdir ki, bu da onların maddi-rifah halının yaxşılaşması deməkdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası Ağstafa rayonunda tədbirlər planına uyğun həyata keçirilmişdir. Ağstafa rayonu üzrə cari ildə həyata keçirilmiş bir sıra tədbirlər nəticəsində rayonda 1183 nəfər işlə təmin olunmuşdur. Rayon üzrə işlə təmin olunanların (1036 nəfər) 87.5 faizi daimi işlərdə işləyənlərdir. Rayonda yaradılmış hərtərəfli şəraitin nəticəsidir ki, bir vaxtlar iqtisadi çatışmazlıqlar ucbatından başqa şəhərlərə və ölkələrə üz tutmuş ağstafalılar geri qayıdaraq rayonun inkişafında öz töhfələrini verməyi üstün tuturlar. Statistik göstəricilərə görə, bu ilin 9 ayı ərzində rayonda miqrasiya artımı müsbət saldo ilə nəticələnmişdir.

Bir sözlə, Ağstafanın tranzit əhəmiyyətli coğrafi mövqeyi, yaradılan şərait rəqabətədavamlı, ixracyönümlü, ölkəyə valyuta gətirə bilən qeyri-neft məhsullarının istehsalı və ixracı üçün zəmin yaradıb və sahibkarlar bundan bəhrələnirlər.



**Vəli VƏLİYEV,**
**"Respublika".**